***49. Ehtimal olunan doğru cavablar:***

"Digər bağlar da Əliş babanın bağı kimi abaddır" cümləsi seçilir.

**Əsaslandırma:** *Mətndən məlum olduğu kimi, Əliş baba kənd əhalisinə yazbaşı tinglər verir və onları ağac əkib-becərməyə həvəsləndirir. Tezliklə bağlar da yaşıllaşmağa başlayır. Bağlar abadlaşdığı üçün Əliş babanın bağı ilə digərləri arasında fərq qalmır.*

***Qiymətləndirmə meyarı:***

| **Bal şkalası** | **Meyarlar** |
|---|---|
| 1 bal | A. İşarə doğru qoyulub əsaslandırılır, yanlış fikir ***yazılmır***; |
| $\frac{1}{2}$ bal | B. İşarə doğru qoyulub əsaslandırılsa da, ***1 yanlış*** fikir də yazılır;<br>C. İşarə yanlış qoyulsa da, doğru əsaslandırılır, yanlış fikir ***yazılmır***; |
| 0 bal | D. İşarə doğru qoyulub əsaslandırılsa da, ***2 və daha çox yanlış*** fikirdə yazılır;<br>E. İşarə yanlış qoyulsa da, doğru əsaslandırılır, həmçinin ***1 və daha çox yanlış*** fikir də yazılır;<br>F. Digər bütün hallarda. |

***50. Ehtimal olunan doğru cavablar:***

*Susuzluqdan yanan kənddə bağ-bağata rast gəlmək mümkün deyildi. Əliş baba isə zəhmətkeşliyi və davamlı fəaliyyəti nəticəsində əlçatmaz görünəni gerçəyə çevirir, kənddə bağlar salınır. Kənd camaatı Əliş babanın onlara verdiyi tingləri əkib böyüdərək, zəhmət çəkərək bağlar salırlar.*

***Qiymətləndir məmeyarı:***

| **Bal şkalası** | **Meyarlar** |
|---|---|
| 1 bal | A. Deyim mətnlə əlaqələndirilir, yanlış fikir ***yazılmır***; |
| $\frac{1}{2}$ bal | B.Deyim mətnlə ***əlaqələndirilmədən*** izah olunur;<br>C. Deyim əlaqələndirilsə də, uyğun ***olmayan*** 1 fikirdə yazılır; |
| 0 bal | D. Həm deyim mətnlə ***əlaqələndirilmir***, həm də uyğun ***olmayan*** 1 fikir yazılır;<br>E. Uyğun fikirlə yanaşı, ***2 və daha çox yanlış*** fikir də yazılır;<br>F. Digər bütün hallarda. |

***59. Ehtimal olunan doğru cavablar:***

| | ***Sözün qarşılığı (ifadə etdiyi məna)*** | ***Həmin qarşılığın (ifadə etdiyi mənanın) mətndənkənar cümlədə işlədilməsi*** |
|---|---|---|
| | *nümunə oldu* | *Onun davranışı hamımıza nümunə oldu.* |
| | *maraq yaratmaq,<br>həvəs yaratmaq* | *Yeni qaydalar işimizə qarşı həvəs yaratdı.* |

***Qiymətləndirmə meyarı:***

| **Bal şkalası** | **Meyarlar** |
|---|---|
| 1 bal | A. Hər iki sözlə bağlı xanaların hər birinə doğru fikir yazılır, yanlış fikir ***yazılmır***;<br>B. Sözlərin qarşılıqları yazılmadan qarşılıqlar (*nümunə oldu* və *maraq yaratmaq*) birbaşa cümlə daxilində işlədilir, yanlış fikir ***yazılmır***; |
| $\frac{2}{3}$ bal | C. Hər iki sözlə bağlı xanaların hər birinə doğru fikir yazılsa da, hər hansı bir xanaya doğru fikirlə yanaşı, ***1 yanlış*** fikir də yazılır;<br>D. Sözlərin qarşılıqları yazılmadan qarşılıqlar (*nümunə oldu* və *maraq yaratmaq*) birbaşa cümlə daxilində işlədilir, ***1 yanlış*** fikir də yazılır;<br>E. Sözlərdən hər hansı birinin qarşılığı doğru yazılmaqla yanaşı, cümlə daxilində işlədilir, digər sözə aid xanalar ***yanlış*** yazılır və ya ***yazılmır***;<br>F. Sözlərin qarşılıqları (*nümunə oldu* və *maraq yaratmaq*) doğru yazılır, lakin cümlə daxilində mətndəki sözlər (*örnək oldu* və ya *rəğbət oyatdı*) yazılır, yanlış fikir ***yazılmır***; |
| $\frac{1}{3}$ bal | G. Sözlərdən hər hansı birinin kontekstə uyğun qarşılığı (ifadə etdiyi məna) doğru yazılır, lakin cümlə daxilində mətndəki sözlər (*örnək oldu* və ya *rəğbət oyatdı*) yazılır, digər xanalar ***yazılmır*** və ya ***yanlış*** yazılır;<br>H. Sözlərin qarşılıqları doğru yazılır, cümlə daxilində ***işlədilmir*** və ya cümlə daxilində ***yanlış*** işlədilir;<br>I. Sözlərdən birində qarşılıq, digərində isə cümlə doğru yazılsa da, digər xanalar ***yazılmır*** və ya ***yanlış*** yazılır;<br>J. Sözlərdən birinin qarşılığı yazılmadan birbaşa cümlə daxilində işlədilir, digər sözə aid xanalar ***yazılmır*** və ya ***yanlış*** yazılır;<br>K. Sözlərdən birinin qarşılığına ***iki doğru*** fikirlə yanaşı, ***bir yanlış*** fikir də yazılır, cümlə daxilində doğru ifadə işlədilir,digər sözə aid xanalar ***yazılmır*** və ya ***yanlış*** yazılır; |
| 0 bal | L. Digər bütün hallarda. |

***Qeyd 1:*** "***Örnək oldu***" ifadəsinin qarşılığına *"dərs oldu, misal oldu, ibrət oldu, seçildi, göstəriş oldu*" kimi fikirlər yazılarsa, ***yanlışdır***.
***Qeyd 2:*** "***Rəğbət oyatdı***" ifadəsinin qarşılığına *"xoş təəssürat, xoş hiss, müsbət hiss oyatmaq, sevinc oyatmaq, qürur, dəyər, mərhəmət, rəqabət" kimi fikirlər yazılarsa,* ***yanlışdır.***

***60. Ehtimal olunan doğru cavablar:***

***Məzmun ardıcıllığını pozan cümlə:*** Bununla yanaşı, bir neçə tacirin də məktəbə pul yardımı etdiyinin şahidi olmuşdum (V abzasda onuncu cümlə).

***Əsaslandırma:*** 5-ci abzasda məktəbdə bir neçə fənnin tədris olunduğundan və valideynlərin bu işə münasibətindən bəhs olunur. "*Bir neçə tacirin məktəbə pul yardımı*" fikrinin həmin abzasda verilməsi yanlışdır. İanə ilə bağlı məlumat 4-cü abzasda verilmişdir. Həmin fikir mətnin 4-cü abzasına aiddir.

***Qiymətləndirmə meyarı:***

| **Bal şkalası** | **Meyarlar** |
|---|---|
| 1 bal | A. Tələb olunan cümlə yazılır və əsaslandırılır, yanlış fikir ***yazılmır***; |
| $\frac{1}{2}$ bal | B.Yalnız tələb olunan cümlə yazılır, ***əsaslandırılmır***;<br>C. Tələb olunan cümlə yazılıb əsaslandırılsa da***, 1 yanlış*** fikir də yazılır; |
| 0 bal | D.Tələb olunan cümlə yazılsa da, ***yanlış*** əsaslandırılır;<br>E. Tələb olunan cümlə yazılıb əsaslandırılsa da***, 2 və daha çox yanlış*** fikir də yazılır;<br>F. Digər bütün hallarda. |